# YURDA QAYIDIŞ

*Əli Rza Xələfli dostuma*

Şirin yuxuda idim; Tanrım: "Dur, oyan", - dedi,
Yeni xoş xəbərlərə olarsan mayıl, - dedi.

Cəbrayıla sancılan bayrağı görməlisən,
Dosta göz aydınlığı, xoş xəbər verməlisən".

Narahatlığı tamam süpürüb yana atdım,
qaçqınlıq həyatımda yeni arzuya çatdım.

Qarabağ göylərində çaxdı odlu şimşəklər,
Neçə gündür sevinir köçkün ruhlu ürəklər.

Ala-toran zamanı yayıldı bu xoş xəbər:
Cəbrayılda qalmayıb yağı düşməndən əsər.

Otuz ilin həsrəti sevincə döndü bu gün,
Haqq-ədalət türklərin canı olduğu üçün.

Xələfli, Xudafərin gəldi gözüm önünə,
Paylaşım sevincimi məd Cəbrayıl elinə.

Çoxdu dostum, həmkarım Haraylan torpağında,
Ürəyim isə qalıb Seldağlan sorağında.

İtirdiyim Günəşli kəndini sizdə tapdım,
Sanki bircə anlığa xariqələr yaratdım.

Xoş xəbərlər eşitdim barlı payız ayında,
Tona çayın ətrini duydum İncəsayında.

Xələflidən Xələfli ağla ilk gələn oldu,
Hamıdan tez Əli Rza sevinci bölən oldu.

Görməmişəm o yurdu: dağ, dərəli, meşəli,
Canlandı xəyalımda doğma yurdum Ləmbəli!

Cəbrayıl sıralanıb rayonlar arasında,
Öz yeri, öz sözü var onların sırasında.

At üstə doğulmuşuq biz, qardaşım Xələfli,
Həyat döyüşlərində yaşamışıq şərəfli.

Otuz il yad əlində inlədi torpağımız,
Bol məhsullu zəmimiz, barlı baxçv-bağımız.

Coşdu, qaynadı birdən yenilməz türkün qanı,
Şimşəyə dönüb çaxdı vətəncanlı, vicdanlı.

Şəfədə tərəf döndü Qarabağın günləri,
Ordumuz ayaqladı hicran dolu illəri.

El-obaya boylandı möhtəşəm Tumas dağı,
Dalğalandı körpüdə Azərbaycan bayrağı.

Cəbrayılın qoynunda əbədi çıraq yandı,
Hələlik Ləmbəlinin ümidləri dayandı.

Xələflidə isindi elin evi, eşiyi,
Ləmbəlinin, a qardaş, buza döndü beşiyi.

"Almuraddır" deyirlər, minməmişəm köhləni,
Sağalmaz iflic olub Ənsərin dərdi, qəmi.

Dağ Tumasla yanaşı duran Ləlvərim vardı,
Tumasın yolu açıq, Ləlvərin yolu dardı.

Buna əlimiz çatır, o isə girov yatır,
Allahım, xələflilər, şükür, arzuya çatır.

Sevinc dənizimizə üzənlər girə bilər,
Ordakı könül quşun bacaran görə bilər.

Əli, könül quşların səmalarda səkirlər,
Xudafərin əksini dünyamıza səpirlər.

Mənimsə körpülərim gözdən uzaq qalıblar,
Arzularımı hələ əsarətə salıblar.

Dostum, sevgi dənizin elə məhəbbətindir,
Eldən qazandığınsa elə öz hörmətindir.

Qoy şad olsun, közərsin Cəbrayıllar ocağı,
Bəzəsin Qarabağı Azərbaycan bayrağı.

Kül səpilsin gözünə faşist, qanlı düşmənin,
Daim buludsuz olsun səmaları vətənin.

"Şairin tənhalığı" aləmlər yaradandı,
Tənha qalmağı onun dərdi-qəmi atandı.

Bu günün sevincinə şərikəm, əziz qardaş,
Mən də Xələfli kimi sevinə biləydim kaş.

-Gözlərin aydın olsun, sən öz arzuna çatdın,
Köçkünlüyün daşını bu gün əbədi atdın.

"Dağdağan ocağı" var, sizdə olub bizdə də,
Xələfli artıq üzdə, Ləmbəli qəlbimizdə.

Sənin yerin hazırdı doğma yurd, torpağında,
Mən isə öləcəyəm qərib yurd bucağında.

Yürü, Xələfli, yürü, arxanca yürüyüm mən,
Yaşasın rəhbərimiz, bir də sevilən Vətən!

Bütöv Azərbaycandır arzumuz, diləyimiz,
Onun rəhbəri olan İlhamdır ürəyimiz.

Azərbaycandır Şuşa, Xankəndi, Bir də Laçın,
Azərbaycan əsgəri bütövlüyə yol açsın.

Qarabağlılar yurdda əbədi sakin olsun,
Allahım, kömək eylə, arzular tez çin olsun!



***Bilal ƏNSƏR***
***AYB və AJB-nin üzvü,***
***Qərbi Azərbaycan qaçqını.***

Kredo 2020.- 23 dekabr.- S.15.